# “Ağ qızıl”ın yeni dövranı

## *Goranboylular bu gəlirli sahəni həvəslə dirçəldirlər*

***Bu gün respublikamızın ənənəvi pambıqçılıq rayonlarında yeni bir canlanma və əmək coşğunluğu hökm sürür. Əlbəttə, bu, təsadüfi deyil. Məsələ burasındadır ki, Prezident İlham Əliyevin müxtəlif toplantılarda ənənəvi aqrar sahələrin dirçəldilməsi ilə bağlı söylədiyi mülahizələr, xüsusən Sabirabadda pambıqçılığın inkişafı məsələlərinə həsr edilmiş müşavirədə qarşıya qoyduğu mühüm və təxirəsalınmaz vəzifələr bölgələrdə bütün qüvvələri hərəkətə gətirmiş, imkan və səyləri birləşdirmişdir. Kənd adamları, fermer və sahibkarlar çoxdan gözlədikləri bu dönüşü ürəkdən bəyəndiklərini və müdafiə etdiklərini əməli işləri ilə sübuta yetirirlər.***




İndi hər yerdə olduğu kimi, Goranboyda da böyük zəhmət hesabına yetişdirilmiş məhsulu tez və itkisiz toplamaq ümumrayon qayğısıdır. Bu məqsədlə rayon icra hakimiyyəti nəzdində operativ qərargah da yaradılmışdır. Qərargah üzvləri gün ərzində məhsul yığımının gedişini nəzarət altında saxlayır, meydana çıxan çətinlikləri dərhal aradan qaldırırlar. Vaxtaşırı nəticələr ümumiləşdirilir, təhlil edilir, növbəti vəzifələr müəyyənləşdirilir. İşin bu cür təşkili isə aydın məsələdir ki, məhsul yığımının gündən-günə sürətlənməsinə səbəb olur, intizam və tələbkarlığı artırır.

Rayonun ayrı-ayrı kəndlərində fermerlərlə, sahibkarlarla iş üstündə görüş- söhbət edərkən bir daha bu işgüzarlığın şahidi olduq. Ən əvvəl Qızılhacılı kəndinin pambıq tarlalarında olduq. Öyrəndik ki, ötən əsrin 70-80-ci illərində rayonda ən çox pambıq yetişdirən təsərrüfatlardan biri bu kənddə olub. Ancaq təəssüf ki, sonralar pambıqçılığa maraq və həvəs azalıb, bu qiymətli məhsul, nədənsə, gözdən düşüb. Bunun, əlbəttə, bir çox səbəbləri olub. Əsas əngəllərdən biri o olub ki, kənd adamları təhvil verdikləri məhsulun pulunu aylarla-illərlə ala bilməyiblər. Belə olanda, sözsüz ki, əl işdən soyuyub, bu strateji məhsula olan maraq itib.

İndi isə vəziyyət tamamilə başqadır. Bu ildən ölkə rəhbərinin himayə və təşviqi ilə kənd təsərrüfatında ənənəvi sahələrin bərpasına və inkişafına start verilmişdir. Nəticə isə göz qabağındadır. Təkcə Qızılhacılı kəndində əvvəlki illərlə müqayisədə pambıq əkini sahələri 3-4 dəfə artırılmışdır.

...Geniş torpaq yol pambıq sahələrini iki yerə bölür. Yolun hər iki tərəfində məhsul yığılırdı. Kiçik arxın yaxası boyu pambıqyığan maşın aramla irəliləyirdi. Dolu bardanlar yığılan yerdə isə qızlar, gəlinlər “ağ qızıl” toplayırdılar. Onlar durna qatarını xatırladan cərgələri başa vurmamış önlükləri dolurdu. Qozaların, demək olar ki, hamısı açmışdı. Deməli, nə qədər ki, havalar əlverişli keçirdi, yağışlar başlamamışdı, vaxt itkisinə yol verməmək olmazdı. Bir tərəfi başıqarlı Murov dağlarına söykənən Goranboy rayonu üçün bu, xüsusilə vacibdir.

Rayonun qabaqcıl fermerlərindən olan Mustafa Pirimovun pambıq sahəsinə gəlirik. Təcrübəli pambıqçı tarlaların hazırkı vəziyyətindən, yığımın gedişindən, əldə olunan nəticələrdən həvəslə danışdı:

-Biz həmişə pambıq əkmişik. Ancaq düzünü deyək ki, bu, 5-6 hektardan çox olmurdu. Bu il isə 39 hektar sahədə pambıq yetişdirmişik. Becərmə və aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə aparmışıq. Suvarma suyundan da korluğumuz olmamışdır. Ona görə də bu il sahələrdə bol məhsul yetişmişdir. İndi əsas diqqətimiz məhsul itkisinə yol verməmək, onu mümkün qədər qısa müddətdə toplayıb emalçılara təhvil verməkdir.



Qabaqcıl pambıqçılarla tanış oluruq. Aytəkin Əsgərova sahənin kənarındakı dolu bardanlara işarə edərək dedi:

- Bir zamanlar pambıq bu yerlərin şöhrəti, bolluq, bərəkət mənbəyi idi. Bax gördüyünüz bu çöllərdə başdan-başa pambıq yetişdirilirdi. Yaşlı nəslin nümayəndələri danışırlar ki, ötən əsrin 70-80-ci illərində ulu öndər Heydər Əliyev dəfələrlə bizim rayonda olmuş, pambıqçılarla iş üstündə görüşüb- söhbət etmiş, qayğıları ilə maraqlanmış, onlarla şəkil də çəkdirmişdir. Heç uzağa getməyək. Həmin illər hər bir kənd adamı özünə müasir ev tikdirmiş, maşın almış, yaxşı gün-güzəran qurmuşdur. Biz hazırda ona çalışırıq ki, pambıqçılığın keçmiş şöhrətini özünə qaytaraq, onun yüksək qazancı ilə həyatımızı yenidən dəyişək. Bunun üçün, ilk növbədə, əkinləri genişləndirəcəyik. Qərara almışıq ki, gələn il əkin sahələrini, ən az, iki dəfə artıraq.

Hənifə Əhmədova isə məsələnin başqa tərəfinə toxundu:

- Yığım pulunun verilməsində heç bir problem yoxdur. Qiymət bizi qane edir. Ona görə də həvəslə işə girişmişik, gün ərzində daha çox məhsul toplamağa çalışırıq. Mən özüm hər gün 80-90 kiloqram pambıq yığıram. Elə ailə var ki, 5-6 nəfər işləyir. Bu isə, hər şeydən əvvəl, bol qazanc, firavan dolanışıq deməkdir. Biz kənd əməkçiləri Prezident İlham Əliyevin Sabirabadda pambıqçılığın inkişaf məsələlərinə həsr olunmuş müşavirədə qarşıya qoyduğu mühüm məsələləri bəyənir və müdafiə edirik. Orada qaldırılan vacib problemlər, təklif və tövsiyələr bizim ürəyimizcədir.

Onu da öyrəndik ki, təsərrüfatda indiyə kimi 60 ton pambıq tədarük edilmişdir. Tarlaların hazırkı vəziyyəti, işin gedişi, əldə olunan nəticələr belə deməyə əsas verir ki, onlar yaxın günlərdə nəzərdə tutduqları 100 ton məhsulu yığıb təhvil verəcəklər.


Azadlıq Radiosu (RFE/RL)



Yolumuz Goranlı kəndinədir. Dedilər ki, rayon üzrə ən yüksək məhsuldarlıq əldə edən fermerlərdən biri Qurban Qurbanovdur. Bizi ilk qarşılayan da elə onun özü oldu:

- Düzdür, taxıl da əkirik, bostan-tərəvəz də becəririk. Ancaq bu ildən əsas diqqəti pambıqçılığa yönəltmişik. Bu, heç də təsadüfi deyil. Əvvələ, respublikamizda, o cümlədən rayonumuzda bu qiymətli bitkiyə münasibət əsaslı şəkildə dəyişib. Ölkə Prezidenti İlham Əliyevin sədrliyi ilə Sabirabadda keçirilən müşavirə isə, sözün həqiqi mənasında, gözümüzə işıq, ürəyimizə təpər, qolumuza güc verdi. Kəndi firavanlığa qovuşdurmağın yolu gəlirli texniki bitkilər əkilməsidir. Digər tərəfdən, bizim camaatda pambıqçılığa maraq və həvəs çox güclüdür. Ona görə ki, onun dilini yaxşı bilirik, ənənəvi sahədir.

Elə bu diqqət və qayğının nəticəsidir ki, bu il 41 hektarda pambıq yetişdirmişik. İndiyə kimi 36 hektarın məhsulunu toplamışıq. Hələlik hər hektardan məhsuldarlıq 27 sentnerdir. Gördüyünüz kimi, sahələrdə hələ məhsul çoxdur. İlkin hesablamalara görə, bu il, ən azı 120 ton “ağ qızıl” tədarük edəcəyik.

Sonra fermer bizi qabaqcıl pambıqçılara tanış etdi. Dedi ki, Üviyyə Musayeva, Şəraf Məmmədova adama gündə 90-95 kiloqram pambıq toplayırlar.

Sürücü-mexaniklərlə də görüşdük. Onu da deyək ki, cari ildə rayon üzrə pambıq əkini sahələrinin 70 faizini maşınlarla yığmaq nəzərdə tutulmuşdur. İnsafən, dərmanlama işləri də vaxtında aparılmış, artıq yarpaq tökümü başa çatmışdır. Demək istəyirəm ki, sahələr maşınla yığım üçün tam hazırdır. Ancaq burada narahatlıq doğuran məsələlər də var. Bu da ondan ibarətdir ki, pambıqyığan maşın azdır. Əgər belə getsə, böyük zəhmət hesabına yetişdirilmiş məhsul zay olub gedər. Buna isə yol vermək olmaz. İndi söz respublika kənd təsərrüfatı nazirliyinindir. Nə qədər gec deyil, Goranboy rayonuna əlavə pambıqyığanlar ayrılmalıdır.

Pərviz Əliyev təcrübəli mexnizatordur. Texnikanın vəziyyətindən, sahələrin yığılma hazırlığından, ümumiyyətlə, işin təşkilindən razıdır. Özü təkbaşına indiyə kimi 400 ton “ağ qızıl” toplayıb. Ancaq texnika azlığı onu da narahat edir:

- Gecə-gündüz işləyirik. Ancaq bu, bir-iki nəfərin işi deyil. Mütləq rayona əlavə texnika ayrılmalıdır. Sahələrə baxıram, adamın heyfi gəlir. Axı, bu böyük zəhmət hesabına başa gəlib. Üstəlik, havalara da bel bağlamaq olmur. Nə qədər ki, quraq keçir, yağışlar başlamayıb yığımın surətini artırmaq lazımdır. Bunun öhdəsindən isə hazırda rayonda mövcud olan pambıqyığan maşınlarla gəlmək mümkün deyil.

Biz Xanqərvənd, Borsunlu, Səmədabad, Rəhimli, Səfürd, Qaradağlı və başqa kəndlərdə də olduq, fermerlərlə, sahibkarlarla görüşdük. Hər yerdə də bol məhsul yetişdirildiyinin, sahələrdə qızğın iş getdiyinin, qəbul məntəqələrinə karvan-karvan “ağ qızıl” daşındığının şahidi olduq.

Ümumiyyətlə, bu gün rayonun 37 kəndində pambıq yığımı gedir. Bu rəqəm bir daha onu göstərir ki, bu gəlirli sahənin, sözün əsl mənasında, dirçəlişi başlanmış, kənd əməkçilərinin pambıqçılığa həvəs və marağı artmışdır.

Onu da öyrəndik ki, pambığın əkilməsi, becərilməsi və qəbulu ilə “CTS-Aqro” MMC və “MKT” MMC şirkətləri məşğul olur. Bu il əsasən Türkiyədən gətirilmiş “Karla”, “Bəyaz”, “Karesma” və “Az NIXI-33” sortları əkilmişdir. Mütəxəssislər bildirdilər ki, Türkiyədən gətirilmiş sortlar həm yerli torpaq və iqlim şəraitinə əlverişlidir, həm də məhsuldarlıq yüksəkdir. Təsadüfi deyil ki, hər hektarın məhsuldarlığı gözlənildiyindən də yüksəkdir.

Goranboyda görüşdüyümüz, söhbət etdiyimiz adamların hamısı ötən əsrin 70-80-ci illərini xoş duyğularla xatırladılar. Səbəb isə çox sadədir. Məhz həmin illərdə ulu öndər Heydər Əliyev respublikamıza rəhbərlik edirdi. İqtisadiyyatın, sosial və mədəni həyatın, o cümlədən pambıqçılığın sürətli inkişafı da həmin illərdə olmuşdu. Goranboylular onu da yaxşı xatırlayırlar ki, 1981-ci ildə rayon tarixində ilk dəfə olaraq 47 min ton “ağ qızıl” istehsal olunmuşdu.

Ölkə Prezidenti İlham Əliyevin sədrliyi ilə Sabirabadda keçirilən müşavirə, qarşıya qoyulan konkret vəzifələr belə bir nikbin əhval-ruhiyyə yaradır ki, bu strateji sahədə itirilmiş söhrət tezliklə geri qaytarılacaqdır. Bunu ənənəvi pambıqçılıq rayonlarındakı möcud vəziyyət, insanların həvəs və marağı, onların gələcək planları bir daha sübut edir. Konkret olaraq söhbət Goranboy rayonundan gedirsə, məqsəd belədir: növbəti ildə pambıq əkini sahələrini 5 min hektara çatdırmaq.

Uğur olsun...

***Ziyəddin SULTANOV,***
***“Xalq qəzeti”nin***
***bölgə müxbiri***